

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

16 aprel 2020-ci il
Cümə axşamı

№ 12 (3477)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## TÜRK ŞURASININ ZİRVƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib.

Koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunan Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev keçən ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünün Bakıda keçirildiyini diqqətə çatdırdı. O, qeyd etdi ki, Azərbaycan bu Zirvə görüşündə sədrliyi öz üzərinə götürdükdən sonrakı dövrdə dünyada təşkilatın nüfuzunun daha da artırılması, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində səylər göstərilib.

Prezident İlham Əliyev sərhəd tanımayaraq dünya boyunca yayılmış və faciəvi nəticələrə gətirib çıxaran koronavirus xəstəliyi səbəbindən Şuraya üzv ölkələrdə və dünyada həyatını itirənlərə rəhmət diləyib, onların yaxınlarına başsağlığı verib və yoluxanların tezliklə şəfa tapmasını arzulayıb.

Dünya miqyasında ilk beynəlxalq təşkilat olaraq Türk Şurası dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünün keçirilməsini nümunəvi səviyyədə olan həmrəyliyin növbəti bariz təzahürü adlandıran ölkə başçımız bu işdə dövlətlərimizi birləşdirən ortaq soykökün, tarixin, mədəniyyətin və milli dəyərlərin, qarşılıqlı səmərəli fəaliyyətin önəmini də xatırladıb.

Ölkə başçımız pandemiyanın qarşısının alınması məqsədilə görülən işlərdən də söhbət açıb.

Videokonfrans çıxışlarla davam edib.

Videokonfransın gündəliyinə əsasən görüşün Bəyannamə mətni razılaşdırılıb və qəbul edilib.

# 2020-ci İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ YEKUNLARI MÜZAKİRƏ OLUNUB



Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə giriş nitqi söyləyib.

- Bu gün biz ilin birinci rübünün yekunlarını müzakirə edəcəyik, görüləcək işlər haqqında danışacağıq. Deyə bilərəm ki, 2020-ci il uğurla başlamışdır. İlin əvvəlinin göstəriciləri deməyə əsas verir ki, Azərbaycanda islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır. Xüsusilə yanvar-fevral aylarında həm iqtisadi, həm də sosial göstəricilərimiz çox müsbət idi. Mart ayında isə müəyyən qədər tənəzzülə uğradıq. Bu da təbiidir. Çünki koronavirus bütün dünya üçün böyük bəladır və dünya iqtisadiyyatı üçün böyük problemdir. Əgər ilin 3 ayını bütövlükdə götürsək, görərik ki, yenə də inkişaf, tərəqqi var. Ancaq hər kəs bilməlidir ki, indi dünya yeni bir mərhələyə qədəm qoyub və hətta ən inkişaf etmiş ölkələr böyük problemlərlə üzləşiblər.

Koronavirus böyük bəladır, 100 mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq.

Bu günlərdə mənə ünvanlanan yüzlərlə, minlərlə məktublar, elektron məktublar, mesajlar göstərir ki, vətəndaşlar atdığımız addımları yüksək qiymətləndirirlər.

O ki qaldı, pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirinə, bu da qaçılmazdır. Artıq aparıcı beynəlxalq maliyyə qurumları qeyd edir ki, bu pandemiyadan yarana biləcək və yaranmaqda olan böhran 2008-2009-cu ilin böhranından daha da ağır olacaq. Bunu Beynəlxalq Valyuta Fondunun rəhbərliyi bildirmişdir. Eyni zamanda, biz bilirik ki, Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına 150-dən çox ölkə yardım üçün müraciət etmişdir. Yəni, dünya birliyinin mütləq əksəriyyəti artıq yardıma ehtiyac duyur və buna görə müraciət edibdir. Azərbaycanın adı bu siyahıda yoxdur.

Biz, ilk növbədə, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların problemlərini həll etməliyik və edirik. Bu məqsədlə böyük məbləğdə vəsait ayrılıb, 600 mindən çox insan, hansı ki, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirib, dövlət tərəfindən dəstəklə təmin edilir.

Onu da bildirməliyəm ki, mənim göstərişimlə son aylar ərzində ünvanlı sosial yardım alan insanların sayı artırılıb, indi 70 mindən çoxdur.

Pandemiya bir daha göstərdi ki, uğurlu inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalıdır. Buna nail olmaq üçün mütləq bütün sahələrdə islahatlar aparılmalıdır - həm iqtisadi-sosial, eyni zamanda, siyasi sahədə.

Bir sözlə, demək istəyirəm ki, üç ayın yekunlarını prinsip etibarilə müsbət qiymətləndirmək olar. Ancaq bir daha demək istəyirəm ki, heç kim bilmir pandemiya nə qədər davam edəcək və iqtisadi fəallıq nə zaman bərpa olunacaq. Biz bütün addımlarımızı vəziyyətə uyğun şəkildə atmalıyıq.

Daha sonra Maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Kənd Təsərrüfatı naziri İnam Kərimov və İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış ediblər.



# MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 1941-1945-ci İLLƏRİN BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANILAN QƏLƏBƏNİN 75 İLLİYİ İLƏ ƏLAQƏDAR BƏYANATI

Vahid vətənpərvərlik coşğusu ilə hiyləgər və qəddar düşmən əleyhinə Vətənin müdafiəsinə qalxmış xalqlarımızın payına düşən tarixin ən ağır sınağı – Böyük Vətən Müharibəsi yetmiş beş il öncə başa çatmışdır. Bizim əcdadlarımız istər döyüş meydanlarında, istərsə də arxa cəbhədə bütün dünyaya mərdlik, qəhrəmanlıq və sarsılmazlıq nümunəsi göstərmişdir. Faşist işğalçıları ilə mübarizədə onlar müharibənin çətin hərcmərclik dövrünün bütün əzab-əziyyətini, müsibətlərini və məhrumiyyətlərini öz çiyinlərində daşımışdır.

Zaman keçdikcə Böyük Qələbədən bizi daha çox il ayırsa da, həmin hadisənin tarixi önəmi illər keçdikcə daha böyük əhəmiyyət kəsb edir. 1945-ci ilin qələbə müjdəli may ayının xatirəsi əvvəlki kimi MDB iştirakçısı olan dövlətlərin xalqlarını birləşdirir. Bu tarix bayramdan artıq bir tarixdir. O, həyat kursunu həmin müharibə ilə tutuşduran müharibədən sonrakı bütün nəsillər üçün əxlaq və mənəviyyat oriyentiridir.

Bu gün biz Vətənin azadlığı və müstəqilliyi naminə həyatını qurban vermiş insanları, ön cəbhədən uzaqda da olsa, gücü tükənənə qədər cəbhəni lazım olan hər bir şeylə təchiz edən şəxsləri xüsusi minnətdarlıq hissi ilə yad edirik.

Düşmənin darmadağın edilməsində daxili işlər orqanlarının əməkdaşları əhəmiyyətli rol oynamışdır. Onların böyük əksəriyyəti könüllü olaraq müharibəyə getmiş, qalanları ilə bütün fəaliyyətini cəbhənin maraqlarına tabe edərək, Qızıl Ordunun arxa cəbhəsini möhkəmlədirdi. Onlar müəssisələrin gücləndirilmiş rejimdə işləməsini təmin edir, zavodların və elektrik stansiyalarının mühafizəsinə nəzarət edir, casusların və diversantların saxlanılmasında iştirak edir, dezertirlər, alverçilər və soyğunçularla amansız mübarizə aparırdı. Eyni zamanda milis əməkdaşları əvvəlki kimi ictimai asayişi qoruyur, əhəmiyyətli dərəcədə artmış cinayətkarlığa qarşı mübarizə aparırdı.

Onların hamısı – adları bilinən və naməlum qəhrəmanlar – torpaqlarına səbirsizliklə gözlənilən sülhün gəlməsinə, öz varislərinin müharibənin dəhşətlərindən xəbərsiz olmasına can atırdı.

Bu misilsiz qəhrəmanlıq xatirəsi əbədi olaraq ürəklərimizdə yaşayacaq!

Böyük Qələbənin növbəti ildönümü müharibənin bir daha təkrarlanmamalı olduğunu və müasir dövrdə bütün münaqişələrin müstəsna olaraq sülh yolu ilə həll olunmalı olduğunu bizə xatırladır. Həmçinin o bizə istənilən təcavüzkarın ədalətli cəzaya çatacağını öyrədir.

Böyük Vətən Müharibəsinin döyüşçülərinə və əmək cəbhəsinin iştirakçılarına xüsusi minnətdarlıq kəlmələri demək istərdik.

Əziz veteranlar! Siz, gələcəyi qorumaqla, bizə sabahlara əminlik bəxş etdiniz. Bu gün sizin xeyirxahlıq, ədalət və Vətənə sevgi ideallarınız bizi ölkələrimizin rifahı naminə yaradıcı əməyə ruhlandırır.

Sizin qəhrəmanlığınızın tarixi miqyası və əhəmiyyəti zamanın hökmündən kənardır. Biz hər zaman sizinlə fəxr edəcək, sizi, qaliblər nəslini, özümüzə örnək biləcəyik!

Böyük Qələbənin varisi olmaq – böyük şərəfdir. Sülh estafetini sizdən qəbul edərək, biz – MDB iştirakçısı olan dövlətlərin daxili işlər orqanlarının (polis) əməkdaşları – bu gün müasir dövrə qarşı artmaqda olan çağırışlar və təhlükələr fonunda vətəndaşların təhlükəsizliyinə görə məsuliyyət yükünün bizim çiyinlərimizə düşdüyünü dərk edirik. Bu mühüm vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsi bir çox halda Birlik ölkələrinin DİN-nin (Polisinin) transmilli cinayətkarlığa qarşı mübarizə sahəsindəki səylərinin konsolidasiyasından asılıdır. Birgə fəaliyyətin yüksək nəticəsi isə bizim ölkələrin xalqlarının mənafeyinə tam həcmdə cavab verəcəkdir.

## "EVDƏ QAL"MAQLA KÖMƏK EDƏK- POLİSLƏRƏ VƏ HƏKİMLƏRƏ

**Bir anlıq Çanaqqalanı xatırlayın: Dövrünə görə ən böyük güclərin ordularına qarşı birləşərək dirəniş göstərən, dilindən "Allahu-Əkbəri" düşməyən, "Vətən, sənin xınalı quzularınız",- deyən Mehmetçiklərin, bir sözlə, böyük türk xalqının zəfər tarixini bizdən cəmi bir əsr ayırır. "Anlamırsınızmı, biz Çanaqqalada türklərlə deyil, Allahla vuruşurduq və əlbəttə ki, məğlub olacaqdıq" fikri ilə məğlubiyyətlərini etiraf edənlərin bir torpaqcanlılardan qorxusu bu gün də var. Nifrətləri isə göz önündədir.**

Mövzu tarix deyil. Lakin ibrət götürmək üçün ən gözəl keçmiş elə odur.

Sovet qoşunları tərəfindən diz çökdürülən Almaniya, alman xalqının iradəsi ilə illər sonra daha möhtəşəm hala gəldi və bu gün dünyanın supergüclərindəndir. Xalq istədi və etdi. İnsan istəsə edə bilər, deməli, istəsək edə bilərik.

Bu gün adına "mahnılar" qoşulan, "şeirlər" yazılan düşmənlə-koronavirus infeksiyası ilə mübarizə aparmaq üçün top, tüfəng lazım deyil, sadəcə deyilənlərə əməl etmək kifayətdir. Bu çətin günlərdə "evdə qal" çağırışlarını zindan həyatı ilə müqayisə etməyək. Evdə ailənlə, övladlarınla birlikdəsən. Zindanda isə…



Dözməliyik, çünki əzizlərimiz var. Dövlət bizim yanımızdadır və görülən hər bir iş, atılan hər addım bu bəladan itkisiz qurtulmaqdır.

Elə bir coğrafiyada yerləşirik ki, dişini qıcayanın ilk zərbəsi bizə dəyə bilər. Başımızın insanlarımızın sağlamlığının qorunmasına qatışdığı bir dönəmdə dövlətimizin zəif düşməsi, gələcəyimiz olan gənclərimizin məhvi üçün sərhədlərimizdən "ağ ölüm" keçirmək istəyənlərin və onların hüquq mühafizə orqanları tərəfindən tutulması istiqamətində aparılan tədbirlərin statistikasına, keçirilən əməliyyat-axtarış tədbirləri zamanı yaxalanan şəxslərin idarə etdikləri avtomobillərdən, yaşadıqları mənzillərdən götürülən narkotik vasitələrin çəkilərinə heç nəzər yetirmisinizmi?



Polisin üzərinə bu gün daha böyük görəv qoyulub. Cinayətkarlıqla qətiyyətli mübarizə və asayişi qorumaqla bərabər, insanların sağlamlığı üçün dövlətin verdiyi qərarların icrasında humanizmini, gücünü də səfərbər edib polis.

***"Bizim polis işçiləri onları çox mülayim formada başa salmağa çalışırlar. Siz indi yaxşı bilirsiniz ki, bəzi ölkələrdə polis nümayəndələri necə davranırlar. Televizorda görürük, heç iki-üç sual da vermir, dərhal hərəkətə keçir. Bizim polisimiz insanları qoruyur. İndi onların üzərinə böyük yük, böyük məsuliyyət düşür. Onlar da öz sağlamlıqlarını risk altına atırlar. Gecə-gündüz küçələrdə onu başa sal, bunu başa sal". Bakıda "Yeni klinika" tibb müəssisəsinin açılışında çıxış edən cənab Prezidentin bu fikirləri polisin, eləcə də həkimlərimizin necə bir rejimdə işləməsinin bariz nümunəsidir.***

Laqeyidik. Belə olmasaydı, verilən qərarları qulaqardına vurub, "mənə heç nə olmaz"larla ovunub kənddən, rayondan "təcili tibbi yardım maşınları" ilə şəhərə gəlib xəstəliyin daşıyıcısı olduqdan sonra, ölüm ayağında "dövlət mənə kömək eləmir"lə özümüzə haqq qazandırmazdıq.

Bütün bunlar azmış kimi, "sapı özümüzdən" olanlar, Azərbaycanı heç zaman güclü, böyük görmək istəməyənlərin yanında "yallananlar" da sosial şəbəkələrdən "hücum"a keçib Azərbaycan Polisini gözdən salmağa çalışırlar. ***Bu gün sığındıqları ölkələrin bəla qarşısında aciz qalmalarını görə-görə vətəndaşını qorumaq üçün bütün qurumları səfərbər olan Azərbaycanı, onun Prezidentini, Polisini hədəfə alanların niyyətini Azərbaycan xalqı daha yaxşı bilir…***

Ümidliyik. Və nə yaxşı ki, yer üzünün mələkləri var: Uşaqlar. Onların polisimizə, həkimimizə dəstək olaraq sosial şəbəkələr vasitəsilə böyüklərə "evdə qal" çağırışları, eləcə də insanların həyatını qurtarmaq üçün öz sağlamlığını təhlükəyə atanları-atalarını, analarını görməyən polis, həkim övladlarının, bütövlükdə xalqımızın Allaha açılan əlləri, duaları, ən əsası, qaydalara riayət etməklə "COVID-19"a qalib gələcəyik.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# ON BİR SUAL, ON BİR CAVAB

***XÜSUSİ KARANTİN REJİMİ DÖVRÜNDƏ XİDMƏT APARAN POLİS ƏMƏKDAŞLARININ VƏ HƏRBİ QULLUQÇULARIN BİLMƏSİ VACİBDİR.***

**1. Xüsusi karantin rejimi dövründə icazə əsasında küçəyə çıxan şəxslərin əlcək geyinməsi və maska taxması vacibdirmi?**

-Xüsusi karantin rejimi dövründə küçəyə çıxan şəxslərin əlcək geyinməməsinə və maska taxmamasına görə hüquqi məsuliyyət nəzərdə tutulmur.

**2. Xüsusi karantin rejimi dövründə müvafiq icazə əsasında hərəkət edən şəxs ona məxsus olan və ya etibarnamə ilə idarə etdiyi nəqliyyat vasitəsi üçün əlavə icazə almalıdırmı?**

-"icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə və 8103 nömrəsinə SMS göndərməklə icazə almış şəxs fərdi avtomobilindən istifadə edə bilər. Bunun üçün əlavə icazə almaq tələb olunmur. Lakin müvafiq icazəsi olmayan şəxslərin həmin avtomobildə daşınması yolverilməzdir və hüquqi məsuliyyət yaradır.

**3. Tətbiq olunan xüsusi karantin rejimi dövründə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu arasında şəxsi minik nəqliyyat vasitələrinin hərəkətinə icazə verilirmi?**

-Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu arasında avtomobillə hərəkətə yalnız xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında, habelə "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə və 8103 nömrəsinə SMS göndərməklə konkret müddətə icazə alındıqda yol verilir.

**4. Kütləvi informasiya vasitələrinin, fasiləsiz fəaliyyət göstərən obyektlərin və müəssisələrin əməkdaşları, habelə müvafiq məlumatları "icaze.e-gov.az" portalına daxil edilmiş şəxslər ərzaq və digər gündəlik tələbat mallarını, dərman vasitələrini almaq üçün 8103 nömrəsinə SMS ilə müraciət etməlidirlərmi?**

-Xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında hərəkətinə yol verilən, barəsindəki məlumatlar işəgötürən tərəfindən "icaze.e-gov.az" portalına daxil edilmiş şəxslərin ərzaq və digər gündəlik tələbat malları, dərman vasitələrini almaq üçün əlavə icazə almasına, yəni 8103 nömrəsinə SMS ilə müraciət etməsinə zərurət yoxdur.

**5. Məişət tullantılarının atılması məqsədi ilə evdən çıxmağa icazə tələb olunurmu?**

-Məişət tullantılarının atılması məqsədi ilə evdən çıxmağa icazə almaq tələb olunmur. Lakin bu hüquqdan sui-istifadə edilməməli, vətəndaş məişət tullantısını atdıqdan dərhal sonra evinə qayıtmalıdır.

**6. Evdən icazəsiz çıxmış şəxs polisin dərhal evə qayıtmaq tələbini yerinə yetirirsə, o, cərimə olunacaq, yoxsa xəbərdarlıqla kifayətlənəcək?**

-Polisin evə qayıtmaq tələbini dərhal və sözsüz yerinə yetirən icazəsiz evdən çıxmış şəxsə xəbərdarlıq edilir.

**7. Dəfnində iştiraka icazə verilən yaxın qohumlar hansılardır?**

-Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 19-cu maddəsinə uyğun olaraq yaxın qohumlara babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər, nəvələr aiddirlər.

**8. Şəxsi taksi sürücülərinin fəaliyyətinə hansı şərtlər daxilində icazə verilir?**

-Xüsusi karantin rejimi dövründə taksi xidmətləri hüquqi şəxslər, sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslər və onların işçiləri, habelə şəxsi minik avtomobilləri ilə sərnişindaşıması həyata keçirmək üçün "Fərqlənmə nişanı" almış vergi ödəyiciləri tərəfindən göstərilə bilər. Həmin şəxslər barəsindəki məlumatlar elektron imzadan istifadə etməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra hərəkətlərinə icazə verilir. Digər hallarda taksi xidmətlərinin göstərilməsinə yol verilmir.

**9. Polis əməkdaşı karantin rejiminin pozulması haqqında inzibati protokol tərtib etdikdən sonra onun bir nüsxəsini vətəndaşa təqdim etməlidirmi?**

-Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 100.3-cü maddəsinə əsasən inzibati xəta haqqında protokolun surəti mütləq qaydada barəsində icraat aparılan şəxsə verilir.

**10. Hazırda respublikanın digər rayonlarında olan Bakı qeydiyyatlı şəxslərin Bakıya qayıtmalarına icazə verilirmi, verilirsə onlar necə qayıda bilərlər?**

-Respublikanın digər şəhər və rayonlarına getmiş Bakı şəhərində daimi qeydiyyatda olan şəxslər fərdi avtomobilləri ilə, avtomobili olmayanlar isə hər bir rayonun (şəhərin) hüdudunadək taksilərdən istifadə etməklə paytaxta qayıda bilərlər.

**11. Ev heyvanı – itin gəzdirilməsi üçün kimdən icazə almaq lazımdır?**

-Ərzaq və dərman almaq, bank və poçt xidmətlərindən istifadə etmək üçün SMS vasitəsilə evdən çıxmaq icazəsi almış şəxslər iki saat müddətində həm də ev heyvanlarını gəzdirə bilərlər.

***Daxili İşlər Nazirliyi***

# Təşəkkür dolu məktublar...

Dünən olduğu kimi bu gün də xidmətini vətəndaş məmnunluğu uzərində quran Azərbaycan Polisi insanların etibarını və güvəncini qazanıb. Ən çətin dönəmlərdə daxili işlər orqanlarının əməkdaşları içdikləri anda sədaqət nümayiş etdirərək vətəndaşa təhlükədən daha yaxın olduqlarını dönə-dönə sübut ediblər. Dünyanı cənginə alan koronavirus pandemiyasının ölkəmizdə qarşısının alınması məqsədilə tətbiq olunmuş xüsusi karantin rejimi ilə əlaqədar səfərbər olan daxili işlər orqanları yalnız bir ali məqsəd uğrunda mübarizə aparırlar: İnsanların sağlamlığı üçün dövlət tərəfindən həyata keçirilən tədbirlər bəhrəsini versin, Azərbaycanımız bu bəladan daha az itkilərlə qurtulsun. Bəzi nöqsanlar qeydə alınsa da sevindirici haldır ki, xüsusi karantin rejimi dövründə vətəndaş məmnunluğu günü-gündən daha da müsbət yön alır. Daxili İşlər Nazirliyinin rəsmi İnternet səhifəsinə və sosial şəbəkələrdəki səhifələrinə, o cümlədən redaksiyamıza ünvanlanan məktublarda da vətəndaş-polis həmrəyliyi öz əksini tapıb. "Mənim Polisim məni qoruyur, polisimizlə qürur duyuram", - fikirləri isə məktubların əsas qayəsidir.

**Xəzər rayonunda müvəqqəti məskunlaşan Kəlbəcər rayon sakini Məzahir Bağırov** Polis Akademiyasında təhsil alan övladlarının sağlamlığı üçün yaradılmış hərtərəfli şəraitə, onların yüksək qayğı ilə əhatə olunmasına və aparılan məqsədyönlü işlərə görə DİN və Akademiyanın rəhbərliyinə təşəkkürünü bildirir.

**Sumqayıt şəhər sakini Mais Məmmədov** təşəkkür məktubunda avtomobilində baş vermiş oğurluq hadisəsinin üstünün tez bir zamanda açılaraq ona dəyən ziyanın ödənilməsində göstərdikləri köməyə görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlığını yazır.

**Bakı şəhər sakini Cavad Cavadov** şikayətinə operativ və obyektiv şəkildə baxılmasında Binəqədi RPİ 40-cı PB-nin, Zenfira İbrahimova isə 6-cı Polis Bölməsinin əməkdaşlarının vətəndaş müraciətlərinə həssas yanaşdıqlarına görə fəaliyyətini təqdir edirlər.

**Paytaxt sakini Xəyalə Ağayeva** pozulmuş hüquqlarının bərpa olunmasında göstərdikləri köməyə görə İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir, insan hüquq və azadlıqlarının qorunmasında daxili işlər orqanları əməkdaşlarının fəaliyyətini yüksək dəyərləndirir.

**Nailə Rüstəmova** probleminin həllini tapmasında Nəsimi Rayon Polis İdarəsinin əməkdaşlarına, **Azər Quliyev və Elada Mövsümova** isə onlara dəyən ziyanın ödənilməsində göstərdikləri köməyə görə Binəqədi Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlıqlarını bildirirlər.

**Paytaxt sakini Ehtiram Hacıyevin** də məktubu minnətdarlıq doludur. O, səmimi qəbula və ona göstərilən köməyə görə Bakı şəhər Baş Polis İdarəsinin rəhbərliyinə minnətdarlığını ifadə edir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Karantin rejimini siyasiləşdirənlər

**Son vaxtlar bir sıra kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə polisin respublikada tətbiq olunan xüsusi karantin rejimi çərçivəsində müxalifət nümayəndələrini guya təqib etməsi, barələrində qanunsuz olaraq hüquqi məsuliyyət tədbirləri görməsinə dair məlumatlar yayılır.**



Obyektivlikdən sözsüz ki, kənar olan həmin iddiaların heç bir əsası yoxdur və bu cür qərəzli fikirlər cəmiyyəti çaşdırmaq məqsədi güdən dezinformasiyadan başqa bir şey deyildir.

Xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarət həvalə edilmiş polis, müvafiq sahədə üzərinə düşən vəzifələrlə bərabər cinayətkarlığa qarşı mübarizə, asayişin və təhlükəsizliyin təmini kimi gündəlik funksiyalarının icrasını da həyata keçirir.

Koronavirus pandemiyasının qarşısının alınmasına dair hökumət tərəfindən xüsusi Tədbirlər Planının icrasına başlanıldığı vaxtdan, polis ölkə quru və hava yolları ilə gəlmiş infeksiyaya yoluxmaqda şübhəli şəxslərin müalicə-profilaktika müəssisələrinə təxliyəsi zamanı yüzlərlə təcili tibbi yardım avtomobilini, qonşu dövlətlərə gedən 5.200-dən çox yük nəqliyyat vasitəsini müşayiət edib. Virusa yoluxanların hospitalizasiya edildiyi və yoluxmaları ehtimal olunan şəxslərin karantinə yerləşdirildiyi 51 obyekti bu gün də sutkalıq mühafizə edir. Şəxslərin və nəqliyyatın şəhərlərarası və rayonlararası hərəkətinin məhdudlaşdırılması məqsədilə 733 postda, ictimai yerlərdə, küçə və prospektlərdə xidmət aparır.

Təkcə cari ilin mart ayı ərzində xüsusi karantin rejiminin tələblərinin pozulması faktlarına görə 5 cinayət işi üzrə 11 nəfər məsuliyyətə cəlb olunmuş, 154 nəfər inzibati qaydada həbs edilmiş, 33 minə yaxın şəxs barəsində digər tənbeh tədbirləri görülmüşdür. Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna qanunsuz daxil olmağa cəhd edən 22 min avtomobil geri qaytarılmışdır.

Bütün bunlara paralel olaraq polis özünün qanunla müəyyən edilmiş cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı fəaliyyətini də davam etdirir. Son bir ayda qeydə alınmış 1186 cinayətin böyük əksəriyyəti açılmış, 1860 nəfər məsuliyyətə cəlb edilmiş, axtarışda olan 485 şəxs tutulmuş, 106 cinayətkar qrup zərərsizləşdirilmişdir. Qanunsuz dövriyyədən 260 kiloqram narkotik vasitə çıxarılaraq bu əməllərə görə 353 nəfər məhkəmə məsuliyyətinə verilmişdir.

Müxalifət nümayəndələrinin təqib edilməsi iddiasina gəldikdə isə qeyd olunmalıdır ki, əqidəsindən, siyasi partiyalara, ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq cinayət yaxud inzibati xəta törətmiş istənilən şəxs qanun qarşısında bərabərdir və yol verdiyi hüquqazidd əmələ görə də cavabdehlik daşıyır.

Polisin həyata keçirdiyi tədbirlər isə məhz cəmiyyətin dinc həyatının, hər bir vətəndaşın sağlamlığının, hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin cinayətkar qəsdlərdən qorunmasına xidmət edir.

# KORONAVİRUSLA MÜBARİZƏYƏ POLİSDƏN DƏSTƏK

Ölkəmizdə koronavirusla mübarizənin ilk günlərindən polis ön sıradadır. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna Daxili İşlər Nazirliyi 1.000.000 (bir milyon) manat vəsait köçürüb.

Nazirliyin rəhbər vəzifəli əməkdaşlarının aylıq təminat xərcliyinin 50 faizini, şəxsi heyət üçün nəzərdə tutulmuş mükafat və yardım hesabında toplanan vəsaitin bir hissəsini təşkil edən bu məbləğ Azərbaycan Respublikası Prezidentinin müvafiq təşəbbüsünə dəstək olaraq ölkədə koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə ianə edilib.

**Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair, təqaüddə olan polis polkovniki Fəxrəddin Teyyub həyatımızın və səbrimizin sınağa çəkildiyi bu günlərdə, karantin rejimi dövründə insanlarımızın sağlamlığı üçün öz həyatlarını riskə atan, sabitliyi qoruyan həmkarlarımıza "Məni qoruyacaq mənim polisim!" adlı şeir həsr edib. Həmin şeiri diqqətinizə çatdırırıq.**

## MƏNİ QORUYACAQ MƏNİM POLİSİM

*Adam gözə dəymir daha şəhərdə,*
*Şəhər xəstələnib yarası dərin.*
*Sənin addım səsin axşam, səhər də,*
*Pozur sükutunu boş küçələrin.*

*Hər kəs öz evində, sən hər yerdəsən,*
*Yolunu nigaran qalan gözləyir.*
*Gecə də, gündüz də küçələrdəsən,*
*Gözünün işığı balan gözləyir.*

*Hər arzun ox kimi dəyir hədəfə,*
*Qoyulur heykəli igidin, nərin.*
*Önündə başımı əydim min dəfə,*
*Səni bu dünyaya gətirənlərin.*

*Zəhmət üzə gülür, belə bilirəm,*
*Görmüşəm yağışda, qarda halını.*
*Sıravi görəndə elə bilirəm,*
*Görürəm sabahın generalını.*

*Uca dağ qüruru çinar boyunda,*
*Uzatsan, əllərin buluda çatar.*
*Bir polis ömrünün yorğunluğunda,*
*Evdə qalan kəsin rahatlığı var.*

*Gün gələr medal da görəcək sinən,*
*Koronavirusa qənim polisim.*
*Bələdəm əzminə, iradəsinə,*
*Məni qoruyacaq mənim polisim.*

## BİRLİKDƏ OLAQ: XOŞ VƏ ÇƏTİN GÜNLƏRDƏ

Texnologiyanın inkişafından yararlanan hər kəs gördüyü, bildiyi, qarşılaşdığı hadisəni telefonunun yaddaşına həkk





edir və sosial şəbəkələrdə paylaşır. Bir neçə dəqiqə ərzində internet resursları vasitəsilə sərhədləri aşaraq xalqlar və dövlətlər haqqında fikir formalaşdırılır.

Bu gün dünya onu cənginə almış COVID-19 yeni koronovirus infeksiyası ilə "ölüm-qalım" mücadiləsi verir. Ölkəmizdə də pandemiyaya qarşı tutarlı və kəsərli tədbirlər görülür, qarşısının alınması istiqamətində karantin tədbirləri həyata keçirilir. Təhlükəsizliyin təminatçısı olan daxili işlər orqanları səhiyyə işçiləri ilə birgə gecə-gündüz yorulmadan vətəndaşların sağlamlığının keşiyində dayanır, gözəgörünməz düşmənlə mübarizə aparırlar. İnfeksiyanın yayılmasının qarşısını almaq məqsədilə "#evdəqal" çağırışına riayət etməyənlər, karantin qaydalarını pozanlar isə cəzadan yaxa qurtara bilmirlər.

Asayiş keşikçiləri bu çətin günlərdə sərgilədiyi vətəndaşlıq mövqeyi ilə də örnək olmağı bacarır. Bəlanın gətirdiyi sıxıntı səbəbindən ümidini itirənlərin üzlərindəki təbəssümü geri qaytarmaq üçün onlar yaşlı insanlara, maddi cəhətdən imkanı zəif olan aztəminatlı ailələrə baş çəkir, səhhətləriylə maraqlanır, müxtəlif ərzaq məhsullarından ibarət bağlamaları onlara təqdim edirlər. Bu nəcib addımlar insanlar tərəfindən rəğbət və minnətdarlıqla qarşılanır. Vətənpərvərliyi, insanlığı, humanistliyi





ilə xalqın sevgisini qazanmış Azərbaycan Polisinin fədakarlığını bu şəkillərə ürəyinin gözü ilə baxanlar görə bilərlər.

*Teymur Əlizadə,*
*polis kapitanı*

## DÜNYADA VƏ BİZDƏ: *FƏRQİ ÖZÜNÜZ GÖRÜN*

**Koronavirus infeksiyası ilə bağlı həyata keçirilən karantin rejimində dünya ölkələrinin hüquq mühafizə orqanlarının tətbiq etdikləri cəza tədbirləri.**

**Fransanın cənubunda, Nitsada** polis dronlara quraşdırılan səsgücləndiricilər vasitəsi ilə sakinlərə məsafəni qorumağa və evdən çıxmamağa çağırış ediblər. Paris ətrafında evi tərk etməyə icazə verilmədiyi xəbərdarlığına məhəl qoymayan Amazon saytının kuryerini polislər döyüblər.

**Keniyada** polis karantin qaydalarına riayət etməyənləri döyərək, gözyaşardıcı qazdan istifadə edib.

**Paraqvayda** qaydalara riayət etməyənlər silahla hədələnib və evdən çıxmamaq üçün and içməyə məcbur ediliblər.

**Filippin** prezidenti Rodrigo Duterte aprelin 1-də rəsmi müraciətində polisə və hərbçilərə qanun pozucularını vurmağa icazə verəcəyini açıqlayıb.

**Panamada** hökumət qeyri-adi bir karantin rejimi tətbiq edib: Aprelin 2-dən başlayaraq bazar ertəsi, çərşənbə axşamı və cümə günlərində qadınlar, çərşənbə, cümə axşamı və şənbə günlərində isə kişilər evi tərk edə bilərlər. Bazar günü hamı evdə qalmalıdır.

**Almaniyada** beş ilədək azadlıqdan məhrumetmə cəzası və ya 25 min avro cərimə nəzərdə tutulur.

**İtaliyada heç** bir səbəb olmadan küçəyə çıxana 3 min avro cərimə yazılır. Hökumətin qərarında deyilir ki, karantin qaydalarını pozanlar üç ay, daha ciddi qanun pozuntularına görə isə uzun müddətə



azadlıqdan məhrum edilə bilərlər.

**İspaniya** polisi özünütəcrid rejiminin tətbiqini izləmək üçün dronlardan istifadə edib. İspaniyada karantini pozan şəxslər 6 yüz avroya qədər cərimə və ya həbs cəzasına məhkum edilirlər.

**Peruda** fövqəladə vəziyyət rejimini pozan sürücülərin maşınları cərimə meydançasına təxliyyə edilir, onlar sürücülük vəsiqəsindən məhrum olunur və 6.300 Peru duzu (təqribən 1.800 ABŞ dolları) cərimələnirlər. Təkrar tutulma, hakimiyyət nümayəndəsinin qanuni tələbinə tabe olmayanları daha sərt cəzalar gözləyir.

**Cənub-Şərqi Asiyada** iki həftəlik özünü təcridetmə rejiminin ilk pozuntusuna görə Sinqapurlular 10 min dollar cərimə olunur, hətta 6 aya qədər azadlıqdan məhrum edilirlər. Təkrar izolyasiya rejiminin pozulması 20 min dollarıdək cərimə və ya 12 aya qədər həbs cəzası ilə nəticələnəcək.

**Hindistanda** polis karantin qaydalarını pozanları dəyənək və çubuqlarla döyür. Surat şəhəri yaxınlığında yerli polisin ölkənin digər yaşayış məntəqələrindən piyada qayıdan miqrant işçilərə qarşı gözyaşardıcı qaz istifadə etdiyi də məlumdur.

**Qazaxstanda** fövqəladə vəziyyət rejimində karantin tələblərinə əməl edilmədiyi üçün 5 min rubl



cərimə və ya 15 günədək həbs cəzası tətbiq edilir. Fövqəladə vəziyyət zamanı hakimiyyət nümayəndəsinin qanuni tələbinə itaətsizlik edəni 100 min rubla qədər cərimə, islah işləri, 600 saata qədər icma xidməti və iki ilədək həbs gözləyir.

**ABŞ-ın Merilend** ştatında karantin rejimini pozanlar 5 min dollar cərimə olunur və ya onları bir ilədək həbs gözləyir.

**Avstraliyanın Yeni Cənubi Uelsin** əyalətində karantin rejimini pozanlar 11 min Avstraliya dolları cərimə olunurlar.

**Polşada** polislə vətəndaş arasında problemin yaranmaması üçün evdən çıxan şəxs mobil tətbiq proqramı yükləməlidir. Smartfonun sahibindən geolokasiya ilə selfi çəkməsi xahiş edilir. Proqramın bu tələbinə məhəl qoymayan isə 110 avro cərimələnir.

**Cənubi Afrikada** polis məmuru koronavirus pandemiyası ilə əlaqədar tətbiq olunan karantin rejimini pozan şəxsi qətlə yetirib. Polisin sözlərinə görə martın 29-da paytaxt Yohannesburgun cənubundakı Vosloorus kəndində içki içməyə hazırlaşan vətəndaşları aşkar ediblər. Onları intizama dəvət edən polislər müqavimətlə üzləşiblər.

**Kosta-Rikada** çimərliklərdə patrul xidməti aparan asayiş keşikçiləri karantin qaydalarına riayət etməyən sörfçüyə atəş açıb. O yaralansa da, qaçmağa müvəffəq olub. Qeyd edək ki, bu idman növü də digərləri kimi, Latın Amerika ölkəsində virusun yayılması səbəbindən müvəqqəti olaraq qadağan edilib.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

## ELAN

"Azərbaycan Respublikası Daxili İşlər Orqanlarının Maddi-texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondu" fəaliyyət göstərdiyi illər ərzində qarşıda duran vəzifələrin yerinə yetirilməsində müəyyən işlər görmüşdür. Fondun yaradılmasında məqsəd daxili işlər orqanlarının fəaliyyətinin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi üçün onun maliyyə imkanlarının artırılması və maddi-texniki təminatının daha da yaxşılaşdırılmasından ibarətdir.

Fonda daxil olmuş vəsaitlərin həm də xidmətdə fərqlənən əməkdaşların mükafatlandırılmasına, xidməti vəzifələrini yerinə yetirərkən zərər çəkmiş və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə, həmçinin Qarabağ döyüşlərində şəhid olmuş əməkdaşların ailə üzvlərinə yardım göstərilməsinə, idman-sağlamlıq tədbirlərinin keçirilməsinə, Daxili İşlər Nazirliyinin tədris müəssisələrində təhsilin inkişafına xərclənməsi nəzərdə tutulmuşdur.

Hüquqi və fiziki şəxslər, iş adamları, sahibkarlar fonda yardım göstərə bilərlər.

**Fondun rekvizitlərini təqdim edirik:**
**Azərbaycan Respublikası Kapital Bank ASC-in Nəsimi filialı**
**Manat hesabı: AZ 52 AIIB 38090019440434025111**
**Valyuta hesabı: AZ 42 AIIB 38190018400434025111**
**Bankın kodu:200112**
**Müxbir hesabı:AZ 37 NABZ 01350100000000001944**
**VÖEN:9900003611**
**SWİFT:AIIBAZ2X**
**Fondun ünvanı:**
**Bakı şəhəri, Azərbaycan prospekti 7**
**Telefon: 590-97-02, (055) 212 86 48**
**Fondun VÖENİ:1700261351**

### POLİSDƏN QAÇA BİLMƏDİ

Axşam saatlarında işdən evə qayıdan Nəzrin İsayeva mənzilin qapısının açıq olduğunu görəndə məsələnin nə yerdə olduğunu anlayıb. Vaxt itirmədən Binəqədi RPİ 5-ci Polis Bölməsinə müraciət edib.

Məlumat əsasında əməliyyat-axtarış işlərinə başlayan bölmə əməkdaşları oğurluqda şübhəli bilinən azyaşlıları, əvvəllər məhkum olunmuşlar İ.Salayev və O.Ağayevi saxlayıblar. Bölmə rəisi, polis kapitanı Cavid İsmayılzadənin sözlərinə görə, araşdırma zamanı müəyyən olunub ki, İ.Salayev və O.Ağayev gözaltı etdikləri mənzilə binanın fasadı üzərindən gedən qaz borusu vasitəsilə daxil olaraq iki ədəd "İPhone" markalı mobil telefonu və qızıl-zinət əşyalarını götürüb ordan uzaqlaşıblar. Ancaq polisin çevikliyi və peşəkarlığı sayəsində yaxalanarı ələ veriblər.

İstintaq zamanı onların narkotik aludəçiləri olduğu və paytaxtın digər yerlərində də anoloji əməllər törədikləri üzə çıxıb. Təqsirləndirilən şəxslər toplanmış materiallar əsasında cinayət məsuliyyətinə cəlb olunublar.

* * * *

Bölmə əməkdaşları tərəfindən daha bir uğurlu əməliyyat həyata keçirilib. Vətəndaşların etibarından sui-istifadə edərək onlara maddi ziyan vuran şəxs "isti izlər"lə saxlanılaraq qanuna təslim edilib.

Daxil olmuş məlumat əsasında əməliyyat-axtarış qrupu yaradılıb və təxirəsalınmaz tədbirlər nəticəsində asayiş keşikçiləri dələduzluq edən Camil Fərəcovu saxlayıblar.

Məsələnin "iç üzü" araşdırılarkən bəlli olub ki, C.Fərəcov rayon ərazisində fəaliyyət göstərən mağazalara kontur paylayırmış. Sahibkar Məkan Zeynalovun etibarını

**ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ**

qazandıqdan sonra ona biznes fəaliyyəti ilə məşğul olmaq istədiyini deyib. Bunun üçün müəyyən məbləğdə pulunun çatmadığını bildirərək Məkandan 60 min manat borc istəyib və həmin pula özünə mənzil alıb. Nə biznes fəaliyyəti ilə məşğul olub, nə də ki, borcu qaytarmaq barəsində düşünüb. Edilən şikayətdən sonra asan pul qazanmağı özünə peşə seçən Cəmil bölmə əməkdaşları tərəfindən saxlanılıb və o, tutarlı dəlil-sübutlar qarşısında aciz qalaraq qanunun kəsdiyi cəzayla razılaşıb.

### KEÇMİŞ MƏHKUMUN ATA YADİGARI

Sabunçu Rayon Polis İdarəsinin 12-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan paytaxt sakini, əvvəllər məhkum olunmuş Cavid Əliyev saxlanılıb. Onun üzərində şəxsi axtarış aparılan zaman 1,192 qram heroin aşkar olunaraq götürülüb. Polis Şöbəsində ətrafında keçirilən əlavə əməliyyat tədbirləri zamanı C.Əliyevin yaşadığı ünvanda odlu silah-sursat gizlətməsi də müəyyən edilib. Hal şahidlərinin iştirakı ilə onun Zabrat qəsəbəsindəki mənzilindən 1 ədəd "Naqan" sistemli revolver tapança və həmin silaha aid 4 ədəd patron aşkar olunaraq götürülüb. C.Əliyev ifadəsində həmin silah-sursatın ona 2010-cu ildə dünyasını dəyişən atasından qaldığını və saxlanılan günə qədər polisə təhvil verməyərək qanunsuz olaraq gizlətdiyini bildirib.

Faktla bağlı 12-ci Polis Şöbəsində toplanan materiallar araşdırılması üçün Sabunçu RPİ-nin İstintaq Şöbəsinə göndərilib.

*Teymur Əlizadə,*
*Anar Qafarov*

# HEÇ 40 GÜN DƏ KEÇMƏDİ...

**İçəri girəndə çaşıb qaldı. Çünki heç vaxt evin düzənini belə pozulmuş görməmişdi. Tez yataq otağına keçdi. Paltar dolabı alt-üst olmuş, yorğan-döşək yerə tökülmüş, otaq ələk-vələk edilmişdi. Balaca əl çantasındakı pul və qızıllar da yox idi. Elə bildi ki, oğru hələ də evdədi. Ürəyi çırpınmağa başladı.**

Qorxa-qorxa evin hər yerini gəzdi. Qonaq otağındakı televizor da gözə dəymirdi. Gümanı gələn yerləri yoxladıqdan sonra başıalovlu evdən çıxıb Sabirabad RPŞ-yə üz tutdu. Növbətçi hissəyə yaxınlaşıb hadisə ilə bağlı məlumat verdi. İzahatı alındıqdan sonra **şöbə rəisi, polis polkovniki Namiq Camalov** onu qəbul edib ürək-dirək verdi və oğrunun (ların) tezliklə tapılacağını bildirdi. Məsələ ilə bağlı yaradılmış əməliyyat qrupunun üzvlərinin zərərçəkmiş Rauf Məmmədovun danışdıqlarından gəldiyi qənaət bu oldu ki, evə bələd olan adam və ya təcrübəli oğru evi alt-üst etməz. Deməli, evə girən yad və təcrübəsiz imiş.



Cinayət-axtarış bölməsinin əməkdaşları hadisə yerinə baxış keçirən zaman məlum oldu ki, oğurluq cinayətə meyilli şəxs tərəfindən törədilib. Çünki o, taxta çəpərin üstündən həyətə keçib, evin pəncərəsinə bərkidilmiş mismarları çıxararaq evə girib, yataq otağındakı qadın çantasının içərisindən dəyəri 300 manat olan bir ədəd qızıl üzüyü, dəyəri 150 manat olan bir cüt sırğanı, qonaq otağındakı 500 manat dəyərində olan 102 ekran “Hisense” markalı televizoru götürərək gəldiyi kimi də hadisə yerindən uzaqlaşıb.

Keçirilən əməliyyat-istintaq tədbirləri nəticəsində əvvəllər də oğurluqda ittiham olunaraq məhkum olunmuş 1990-cı il təvəllüdlü Sabirabad şəhər sakini Saleh Əliyev şübhəli şəxs qismində RPŞ-yə dəvət olundu. “Məni buraya nahaq yerə gətirmisiniz”,-deyib polislərin üstünə çəmkirsə də, verilən suallara cavab tapmaqda çətinlik çəkməsi, bir sözlə, kələfin ucunu itirməsi, nəzərləri onun üstünə dikmişdi. Geriyə yolu yox idi və təkzibolunmaz sübutlar qarşısında aciz qalıb əməlini etiraf etdi.

Raufu isə bir məsələ düşündürürdü. Polislər necə etdilər ki, evindən oğurluq etmiş şəxs nə pulları xərcləyə, nə də ki, oğurladığı qızılları dəyər-dəyməzinə satmağa vaxt tapmamışdı.

Bu sualla da əməliyyatçılara müraciət edəndə aldığı cavab belə olmuşdu. Çünki “biz ömrümüzü bu peşəyə həsr etmişik. Sizin görmədiklərinizi, hiss etmədiklərinizi daha tez görüb və hiss edə bilirik”...

***Ruhiyyə Əliyeva, polis baş leytenantı***

# Danışan şəkillər





Bu fikirlər Sənan Nəcəfov adlı sosial şəbəkə izləyicisinə məxsusdur.

**Həmkarımız, polis leytenantı Zeyni Hüseynovun** çəkdiyi bu fotolar inanırıq ki, yaddaşlarda dərin bir iz buraxacaq, sərhəd tanımayan internet resursları üzərindən dünyanı dolaşacaq, ən əsası, Azərbaycan Polisinin təbiətə, sülh rəmzi olan göyərçinlərə sevgisinin bariz nümunəsi kimi tarixdə qalacaq.

**“Bu foto xaricdə çəkilsəydi trendə çevrilərdi. Bizim polislərdi deyə, səsimiz çıxmır. İmic formalaşdırmaq məqsədilə çəkilmiş danimarkalı polisin Liviyadan olan qızla yerdə oturub oyun oynadığı fotonu xatırlayırsınız? Milyonlarla insan paylaşmışdı. İndi koronavirus dövründə bundan gözəl və pozitiv foto var?”.**

# XOŞBƏXTLİK AİLƏDƏN BAŞLAYIR



**Xoşbəxt ailələrin sayı o zaman artır ki, cinsindən asılı olmayaraq hər kəs ailədə üzərinə düşən məsuliyyəti dərk edir.**

Ailə kiçik dövlətdir və cəmiyyətin əsas sütunlarından biridir. Onun bünövrəsinin möhkəm və sağlam olması vacib şərtlərdəndir. Ona görə də ailənin bir-birinə möhkəm tellərlə bağlanması çox mühüm məsələdir. Aqillər əbəs yerə deməyib: “İnsanın bu dünyadakı cənnəti ailəsidir”. Əslində, elə işıqlı sabahımızın da təməli ailədən başlayır. Çünki ailə dəyərlərimizə, milli kimliyimizə hörmət və vətənpərvərlik ruhunda böyüyən hər bir uşaq sabahın gəncidir və gələcəyimizin qarantıdır.

Aidiyyatı dövlət qurumları və qeyri hökumət təşkilatları ilə birgə Azərbaycan Polisi də bu istiqamətdə tədbirlər həyata keçirir. Polis dövlətin mənafeyini, vətəndaşların konstitusion hüquq və azadlıqlarını qorumaqla yanaşı, həm də cəmiyyətin dayağı olan ailələrin üzləşdikləri problemlərlə yaxından tanış olur, onlara yardım göstərməyi də özünə borc bilir. Məhz görülən işlərin nəticəsidir ki, bu gün üzləşdiyi problemlərin həllinə kömək üçün, hətta hər hansı bir anlaşılmazlığa aydınlıq gətirməkdən ötrü polisə üz tutanlar da az deyil. Bax, bu həqiqətən sevindirici haldır və onu deməyə əsas verir ki, illərin və nəsillərin sınağından çıxmış daxili işlər orqanları dünən olduğu kimi, bu gün də vətəndaşın yanındadır, onun inam və etibarını doğruldan güvənc yeridir.

Münaqişəli ailələrlə aparılan işlə bağlı suallarımızı cavablandıran DİN BİTİ-nin nümayəndəsi bildirdi ki, əvvəlcə ailə üzvləri nəzarətə götürülür, barələrində profilaktik yığım işi açılır və ictimai şuraların üzvləri münaqişənin aradan qaldırılmasına cəlb olunur. Ərazi polis orqanlarının rəisləri, eləcə də sahə rəisləri onlarla görüşür ailənin müqəddəsliyi, məsuliyyəti, övladlarına vura biləcək psixoloji zədələr barədə izahedici profilaktiki söhbətlər aparırlar. Müsbət nəticə əldə olunana qədər mütəmadi olaraq işlər davam etdirilir.

Dahilərdən biri deyir ki: “Bütün dünyanı gəzib səadət axtardım, tapmayıb, kor-peşman evə döndüm. Sən demə o, evdə məni gözləyirmiş”…

***Teymur Əlizadə, polis kapitanı***

# TARİXİMİZİ ÖYRƏNƏK

**DƏMİRQAPI DƏRBƏND**

Rus işğalına məruz qalsa da Dərbəndin qədim türk yurdu, qədim türk mədəniyyət mərkəzlərindən biri olması tarixçilər tərəfindən sübuta yetirilib. Eramızın ilk yüzilliklərində Dədə Qorqud bu ulu yurd yerində at oynatmış, hündürboylu türk alp ərənlərin qəhrəmanlıqlarına söz qoşmuş, qopuzu ilə onları öymüş, tərifləmiş, onlara göstərdikləri igidliklərə uyğun ad vermişdi. Tanınmış tədqiqatçıların bəzilərinin fikrincə, Dədə Qorqudun da qəbri Dərbənd şəhərindədir. Təsadüfi deyil ki, "Kitab-i Dədə Qorqud"da Dəmirqapı Dərbəndin də adı çəkilir.



Məşhur alman səyyahı Adam Oleari (17-ci əsr), türk səyyahı Evliya Çələbi və başqaları Dədə Qorqudun qəbrinin Dərbənddə olduğunu bildirmişlər. "Dərbəndnamə" adlı tarixi əsərdə də bununla bağlı məlumat verilib.

Yeri gəlmişkən, Koroğlu dastanında Koroğlunun "Dərbənd səfəri" adlı bir qol var. Bu qolda Dəmirqapı Dərbənd Azərbaycanın ana şəhərlərindən biri kimi tərənnüm edilir.

Dərbənd Azərbaycanın şimal qapısı hesab edilib. Buna da səbəb Dərbəndin olduqca əlverişli bir coğrafi mövqedə yerləşməsi olub. Xəzər dənizinin sahilində yerləşən bu şəhər həm də Azərbaycanın Şimali Qafqaza, Volqa boyuna, Avropaya və Türküstana (Orta Asiyaya) açılan qapısı rolunu oynayırdı.

Şəhərin yaşı bilinmir. Arxeoloqlar və tanınmış tədqiqatçı tarixçilərdən bəziləri onun 3 min, bəziləri isə 5 min yaşı olduğunu söyləyirlər. Amma bu qədim türk yurdunda - Dəmirqapı Dərbənddə aparılan son qazıntı işləri onun eramızdan 4-5 min il əvvəl salındığını göstərir. Dərbəndin adı ilk dəfə eramızdan əvvəl 6-cı əsrdə yunan coğrafiyaşünasları Qekatey və Miletski tərəfindən çəkilib. Farslar bu şəhəri Darbənd (Qapı), Azərbaycan türkləri isə Dəmirqapı Dərbənd və ya sadəcə olaraq Dərbənd (Darbənd) adlandırıblar. Dərbənddə qədim tariximiz yaşadan çoxlu tarixi mədəniyyət abidələrimiz var. Onlardan biri də əzəməti ilə seçilən və tariximizdə şanlı qəhrəmanlı səhifəsi kimi qalan Dərbənd qalasıdır. Rusiyanın Dərbəndi işğal etməsindən sonra (əvvəlcə 1722, sonra 1813-cü ildə) da bu şəhər Azərbaycanın adi şəhərlərindən biri kimi qalmışdı. Yalnız ötən əsrin 30-cu illərinin sonlarında Stalinin göstərişi ilə Dərbənd Azərbaycandan alınaraq Rusiyanın tərkibinə verildi. Buna baxmayaraq Dərbənd bu gün də azərbaycanlılara aid olan əsas xüsusiyyətlərini saxlaya bilib.

Əhalinin əksəriyyətini azərbaycanlılar təşkil edir. Burda V əsrə aid edilən qədim Dərbənd qalası, Narınqala, həmçinin 8-14-cü əsrlərə aid edilən Cümə məscidi, mədrəsə (15-19-cu əsrlər) minarəli məscid (14-19-cu əsrlər) Şah Abbas məscidi, Qırxlar məscidi (17-ci əsr) Sultan Bayazid hamamı (17-18-ci əsrlər) Xan məqbərəsi (18-ci əsr), yeraltı su anbarı (8-17-ci əsrlər) var. Bu qədim abidələr Dərbəndin keçmiş şöhrətindən xəbər verir.

# Aprel ayının 8-dən 14-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 116 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 54 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 31, o cümlədən borclu şəxs qismində axtarışda olan 5 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 7 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 11 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 68 fakt müəyyən edilmişdir.

# DÜNYAYA PƏNCƏRƏ

Koronavirusdan qorunmaq üçün ölkələr müxtəlif tədbirlər həyata keçirirlər. Virusa qarşı ən vacib tədbirlərdən biri də əlləri tez-tez yumaqdır. Bu məsələyə diqqəti artırmaq istəyən Hindistan polisləri "əl yuma rəqsi" ediblər. Həmin video sosial şəbəkə istifadəçilərinin marağına səbəb olub.

*****

***ABŞ-ın Solt-Leyk-Siti şəhərində (Yuta ştatı) polis vətəndaşlardan koronavirus pandemiyası səngiməyincə fəal cinayətkarlıqla məşğul olmamağı xahiş edib.***

***Polis departamenti növbəti göstəriş gəlmədikcə bütün cinayətlərin sıfıra endirilməsini xahiş edib. “Gözlənilən əməkdaşlığa görə təşəkkür edirik. Biz sizə nə zaman normal cinayət fəaliyyətinizə qayıda biləcəyiniz barədə məlumat verəcəyik”, - deyə polisin məlumatında deyilir.***

*****

Çin Xalq Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi bildirib ki, aprelin 2-si üçün olan məlumata görə, 60 polis işçisi və köməkçi polisin 35 əməkdaşı yeni COVID-19 koronavirus pnevmoniyası epidemiyasına qarşı mübarizədə xidməti vəzifəsini yerinə yetirərkən həlak olub.

Bu polislər COVID-19 ilə mübarizənin ön xəttində çalışır, yoluxmuş pasiyentləri və ya onlarla sıx əlaqədə olmuş insanları izləyir, həmçinin epidemiya əleyhinə vasitələrin və materialların çatdırılması ilə bağlı dələduzluq haqqında işləri araşdırırdılar.

Həlak olmuş zabitlərdən 20-si fəxri medallarla təltif edilib.

# İNCİLƏR

❖Qocalar xatirəylə yaşayır, cavanlar ümidlə.

**Gürcü atalar sözü**

❖Qızıl yerdə qalmaz, yaxşılıq yolda.

**Özbək atalar sözü**

❖Ümidini itirməyəni məğlub hesab etmək olmaz.

**Hind atalar sözü**

❖Kim sağlamdırsa o gəncdir.

**A.P.Bon**

❖Sərxoşluq insanın əsəb sisteminin taunudur.

**H.B.Zərdabi**

❖İçkinin başlanğıcı günah, ortası sərxoşluq, sonu fəlakətdir.

**Ə.Xaqani**

❖İstəyirsənsə dilin uzun olsun, əlini gödək et.

**Nuşirəvan Adil**

❖Biganə adam düşməndən qorxuludur.

**F.M.Volter**

❖Bir dəfə səhv etməkdənsə, iki dəfə soruşmaq yaxşıdır.

**Moldov atalar sözü**

❖Günahkarın haqqında vasitəçilik etmək, ümumən asayişi pozan ən pis hərəkətdir.

**A.A.Bakıxanov**

❖Pisliyə vadar etməyin özü də pislik etmək kimi bir şeydir.

**V.Qabus**

❖İnsana nifrət kiçik intihardır.

**İ.F.Şiller**

❖İnsan zəhərli ağac əkdiyini o zaman bilir ki, onun meyvəsini özünə yedirirlər.

**“Kəlilə və Dimnə”dən**

❖Özgəsinə quyu qazmaq istəyən onu öz boyuna görə ölçməlidir.

**Türk atalar sözü**

❖Qəzəblənəndə könül də kor olar, göz də.

**Ərəb atalar sözü**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 15:40
Qiyməti 40 qəpik